

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 sentyabr 2024-cü il №70 (2881) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Sentyabrın 16-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Antoni Blinken Ermənistanla Azərbaycan arasında davamlı sülhün əldə olunmasının vacibliyini vurğulayaraq, Amerika Birləşmiş Ştatlarının bu məqsədə nail olunması üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirib. O, Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə edilmiş nailiyyətləri, o cümlədən dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanmasını müsbət addım kimi qiymətləndirib.

Regionda artıq sülhün mövcud olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, məhz Azərbaycanın səyləri nəticəsində bölgəmizdə ədalətə və beynəlxalq hüquqa əsaslanan yeni reallıqlar və status-kvo yaranıb. Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu qeyd edərək, bu müqavilənin imzalanması üçün Ermənistanın öz Konstitusiyasıva digər qanunverici aktları əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoymasının, həmçinin keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün təsisatların fəaliyyətinə son qoyulmasının vacibliyini vurğulayıb. Sərhədlərin delimitasiyası məsələsinə toxunan Prezident İlham Əliyev ikitərəfli proses çərçivəsində əldə olunmuş müsbət nəticələri qeyd edib və Əsasnamə əsasında bu prosesin aparılacağını bildirib.

Telefon söhbəti zamanı COP29-un ölkəmizdə keçirilməsi məsələsinə toxunulub.

Antoni Blinken COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana dəstək göstərdiyini qeyd edərək Azərbaycan ilə ABŞ-ın COP komandalarının və heyətlərinin yaxından əməkdaşlıq etdiklərini vurğulayıb.

Bu əməkdaşlıqdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev COP çərçivəsində iqlim maliyyələşdirilməsi ilə əlaqədar mühüm qərarların qəbul edilməsi ilə bağlı xüsusilə inkişaf etmiş dövlətlər tərəfindən konsensusun əldə ediləcəyinə ümidvar olduğunu deyib.

Telefon danışığı zamanı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparılıb.

*Döyüş hazırlığı*

## “Dəqiq artilleriya atəşi qələbəni təmin edir”



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarına əsasən, ordu quruculuğu istiqamətində uğurlu islahatlar aparılır. Bu istiqamətdə şəxsi heyətin döyüş hazırlığının, döyüşə hazır olma qabiliyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Döyüş hazırlığının əsasını peşəkarlığın daima yüksəlməsi və qoşunların istənilən hərbi əməliyyatlarda verilən tapşırıqları uğurla icra etmələri təşkil edir.*

Şübhəsiz ki, şəxsi heyəti yüksək hazırlıqlı olan ordu döyüş əməliyyatlarında qələbə qazanacaqdır. 2020-ci ilin sentyabrında düşmənin geniş miqyaslı təxribatına cavab olaraq başlayan Vətən müharibəsində, ordumuzun yüksək döyüş hazırlığına malik olması cəmi 44 gün müddətinə şanlı qələbə qazanmağımızla nəticələndi. İllərdir məşğələlərdə, təlimlərdə müvəffəqiyyətlə iştirak edən şəxsi heyət döyüş meydanında öz bilik və bacarıqlarından istifadə edərək, torpaqlarımızı düşmən işğalından azad etdi. Rəşadətli Azərbaycan Ordusu xalqımıza Qələbə sevincini yaşatdı.

"N" hərbi hissəsində şəxsi heyətin çöl şəraitində dərs prosesini izlədik. Artilleriyaçılar dərs cədvəlinə uyğun olaraq müxtəlif döyüş tapşırıqlarını məşq edirdilər. Geniş ərazidə təlim keçən topçularımız müəyyən olunmuş müxtəlif döyüş tapşırıqlarını icra edir, təcrübə və səriştələrini artırırdılar.

Kapitan Xaliq Əliyev bildirdi ki, qazanılan qələbələr hər zaman şəxsi heyətin təcrübəsi, cəsurluğu, qorxmazlığı və əzmkarlığı hesabına olur. Bu səbəbdən şəxsi heyətlə mütəmadi olaraq dərslər, məşğələlər keçirilir. Hər nə qədər düşmən üzərində qələbə qazansaq da, igid və mərd oğullarımız daima öz üzərilərində çalışır, hərbi bilik və bacarıqlarını artırırlar. Şəxsi heyətin hazırlığından söz açan zabit qeyd etdi ki, bu gün orduda xidmət edən əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığı ilə peşəkar zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları məşğul olurlar. "Bu səbəbdən də şəxsi heyət qarşıya qoyulan bütün tapşırıqları uğurla icra etməyə qadirdir. Plana uyğun olaraq təlimlər də keçirilir. Təlimlərdə əsgərlərimiz yüksək peşəkarlıq nümayiş etdirirlər. Müxtəlif məsafələrdən atəş açmağı mənimsəyirlər".

**(Ardı 6-cı səhifədə)**

## HDQ-də “Partlayıcı sursatların zərərsizləşdirilməsi” kursu keçirilir



2024-cü ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) dəniz xüsusi təyinatlılarının bir qrup şəxsi heyəti ilə "Partlayıcı sursatların zərərsizləşdirilməsi" kursu keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, kursun planına uyğun olaraq, dəniz fazası üzrə dib minalarının, şərti terror qrupları tərəfindən quraşdırılan bütün növ partlayıcı döyüş sursatlarının və kustar üsulla hazırlanan partlayıcı qurğuların aşkarlanması, təhlükəsizlik qaydaları nəzərə alınmaqla onların səthə çıxarılaraq partlatma və yandırma üsulu ilə məhv edilməsi üzrə tapşırıqlar icra olunur.

Kursun keçirilməsində əsas məqsəd bölmələrin döyüş hazırlığını müasir tələblərə uyğunlaşdırmaq, eləcə də hərbi qulluqçuların praktiki vərdişlərini və dövrün tələblərinə uyğun yeni mühəndis avadanlıqlarından effektiv istifadə etmə üzrə bacarıqlarını təkmilləşdirməkdir.



3-cü səhifədə

Yüksək döyüş hazırlığı qələbənin rəhnidir



4-cü səhifədə

Ordumuzun maddi-texniki təminatı yüksək səviyyədədir



5-ci səhifədə

Hərbi təhsil qüdrətli ordunun təməlidir



7-ci səhifədə

İşıqlı sabahlarımız, parlaq gələcəyimiz

## Prezident İlham Əliyev Fatma Səttarovanın vəfatı ilə əlaqədar onun ailəsinə və yaxınlarına başsağlığı verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsi iştirakçısı, ölkəmizin ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə "İstiqlal" ordeni ilə təltif edilmiş Fatma Səttarovanın vəfatı ilə əlaqədar onun ailə üzvlərinə və yaxınlarına başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev Fatma Səttarovanın Vətənə sədaqətlə xidmət edərək, gənclərə və gələcək nəsillərə örnək olan nümunəvi həyat yolu keçdiyini bildirib.

"Bu ağır anlarda dərdinizi bölüşür, ailənizin bütün üzvlərinə öz adımdan və Mehriban xanımın adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!", - deyə Azərbaycan Prezidenti qeyd edib.

# Fatma Səttarova II Fəxri xiyabanda dəfn olunub





Sentyabrın 14-də Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsi veteranı Fatma Səttarova İkinci Şəhidlər xiyabanında dəfn olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, dəfn mərasimində Müdafiə Nazirliyinin əməkdaşları, mərhumənin yaxınları, ailə üzvləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov çıxış edərək Nazirliyin rəhbərliyi adından başsağlığı verib.

Mərasim iştirakçılarına "İstiqlal" ordenli və Prezidentin fərdi təqaüdçüsü olan mərhumə F.Səttarovanın Vətənə, xalqa və millətinə bağlılığından, İkinci Dünya müharibəsinin ilk aylarında tibb bacısı kimi könüllü surətdə cəbhəyə yollanmasından danışılıb. Həmçinin F.Səttarovanın faşizmə qarşı aparılan mübarizədə Sovet ordusunun sıralarında Berlinə qədər getdiyi də xüsusi vurğulanıb.

# Hərbi hüquqşünaslarla təlim-metodiki toplanış keçirilib





Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin fəaliyyət planına uyğun olaraq, Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində Azərbaycan Ordusunun qoşun (qüvvə) növü, baş idarə, birlik və birləşmələrinin hüquqşünasları, təhqiqat xidmət (bölmə) rəisləri, təhqiqatçılar və Hüquq İdarəsinin zabitləri ilə təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Təlim-metodiki toplanışda çıxış edən Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi ədliyyə polkovniki Elçin Əliyev cari il ərzində hərbi hissələr üzrə hərbi qulluqçuların hüquq hazırlığının təşkili, hüquqi sənəd layihələrinin hazırlanması və digər tədbirlər haqqında geniş söhbət açıb.

Toplanışda hərbi intizamın daha da möhkəmləndirilməsi, qanun pozuntularına yol verilməməsi, şəxsi heyətə beynəlxalq humanitar hüququn əsasları, norma və prinsipləri, həmçinin silahlı münaqişə dövründə onların tətbiq edilməsinin əhəmiyyətinin çatdırılması istiqamətində görülən işlərdən danışılıb, bu istiqamətdə qarşıda duran vəzifələr, perspektiv planlar müzakirə edilib.

Həmçinin hərbi hissələrdə hüquq hazırlığının daha səmərəli təşkili, hərbi qulluqçuların hüquqi cəhətdən maarifləndirilməsi və digər mövzular üzrə məruzələr dinlənilib.

Toplanış iştirakçılarının hüquq hazırlığının təşkili üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi, qanunvericiliyin və rəhbər sənədlərin tələblərinin öyrənilməsi məqsədilə keçirilən təlim-metodiki toplanışda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının ildönümü münasibətilə tədbir keçirilib



Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 32-ci ildönümü münasibətilə Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) tədbir keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriki tədbir iştirakçılarına çatdırılıb.

Çıxışlar zamanı əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan ƏÜO-nun yaranma tarixindən, keçdiyi inkişaf yolundan danışılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbi qulluqçuların xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davam etdirildiyi qeyd olunub.

Tədbirdə ƏÜO-nun yaranma tarixi və keçdiyi şərəfli döyüş yolu haqqında film nümayiş etdirilib.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya müxtəlif orden və medallar, növbəti hərbi rütbələr, fəxri fərmanlar təqdim edilib.

# Fotoqrafiya mövzusunda master-klas keçirilib

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində tanınmış azərbaycanlı fotoqraf Reza Deqati ilə görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə R.Deqatiyə Nazirliyin nəşriyyat, multimedia və redaksiya fəaliyyəti barədə geniş məlumat verilib.

Görüşdə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük xidmətlər göstərən R.Deqatinin ölkəmizin ən ağır və faciəvi günlərində, taleyüklü anlarında xalqımızın yanında olduğu vurğulanıb. Onun Birinci Qarabağ və Vətən müharibəsi, eləcə də tarixi zəfərdən sonrakı dövrlərdə erməni vandalizmini və terrorçuluğunu ifşa edən fəaliyyətindən, Azər-




baycanın təbiətini, adət-ənənələrini və mədəniyyətini təbliğ edən çoxşaxəli işlərindən bəhs edilib.

Müdafiə Nazirliyinin kommunikasiya sahəsində fəaliyyət göstərən bir qrup heyəti ilə fotoqrafiya sənətinə həsr edilmiş master-klas keçirilib. İştirakçılara foto sənətinin inkişaf mərhələləri, fotoqrafiyanın tarixi, janrları, həmçinin müasir foto avadanlıqların imkanları haqqında məlumat verilib. Fotoqrafiya sənətinin incəliklərindən danışan R.Deqati fotoda əsas məqamlar olan dokumentalizm, həqiqilik, dolğunluq və reallığa diqqət yetirilməsinin vacibliyini xüsusi qeyd edib.

Master-klas iştirakçılarına azərbaycanlı fotoqrafın həyat və yaradıcılığını əks etdirən film təqdim olunub.

Görüş iştirakçılarının çoxsaylı suallarını cavablandıran R.Deqati zəngin xatirələrini bölüşüb.

Tədbirin sonunda Azərbaycan Ordusunun fəaliyyətini, xüsusilə Vətən müharibəsi dövrünü əks etdirən fotosərgiyə baxış keçirilib.





# Baş direktor 11-ci Pekin Syanşan Forumunda iştirak edib





Çin Xalq Respublikasının paytaxtında 11-ci Pekin Syanşan Forumu keçirilib.

Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti forumda iştirak etmək üçün Çinə işgüzar səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Səfirliyində Ulu Öndər Heydər Əliyevin büstü ziyarət olunub, önünə gül dəstələri düzülərək xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

Sonra Azərbaycan nümayəndə heyəti 11-ci Pekin Syanşan Forumunda iştirak edib.

Cənab Aqil Qurbanov dünyanın 100-dən çox ölkəsinin nazir və digər səviyyədə rəsmiləri, region və beynəlxalq təşkilatlardan rəsmi nümayəndə heyətlərinin iştirak etdiyi forum zamanı Çin Xalq Respublikasının milli müdafiə naziri admiral Donq Jun ilə görüşüb. Baş direktor foruma dəvətə görə minnətdarlığını bildirib.

Çinə işgüzar səfər çərçivəsində baş direktor, həmçinin Mərkəzi Hərbi Şuranın Silah, Hərbi Texnika və Texnologiya üzrə Əməkdaşlıq İdarə rəisi və Dövlət Müdafiə Sənayesi Kompleksinə daxil olan bir sıra şirkətləri ilə görüş keçirib. Görüş zamanı iki ölkə arasında hərbi-texniki əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

# Çinin müdafiə naziri: Çoxqütblü dünyanın qurulmasında bütün dövlətlər iştirak etməlidir

Çinin paytaxtı Pekində "Ortaq gələcək üçün sülhün təşviqi" devizi altında 11-ci Syanşan forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Çinin Milli Müdafiə Nazirliyinin və Hərbi Elmlər Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən foruma 100-dən çox ölkə və beynəlxalq təşkilatdan rəsmi və rəhbər şəxslər, analitik mərkəzlərin nümayəndələri, yüksək rütbəli hərbçilər, hərbi və təhlükəsizlik məsələləri üzrə nüfuzlu ekspertlər qatılıblar. Builki forum iştirakçıların sayının çoxluğu baxımından seçilir. Hətta ABŞ-dan nümayəndə heyəti də bu tədbirə qatılıb. Azərbaycanı bu nüfuzlu tədbirdə müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.



Forumun açılış mərasimində çıxış edən Çinin müdafiə naziri Don Cün hər bir dövlətin özünün təhlükəsizliyini qorumaq hüququnun olduğunu bildirib, təhlükəsiz dünya üçün bütün ölkələrin bu istiqamətdə əməkdaşlığının vacibliyini vurğulayıb. O, bərabər və nizamlı əsaslara söykənən çoxqütblü dünyanın yaradılmasında bütün ölkələrin iştirak etməli olduğunu deyib.

Forumun "Təhlükəsizlik əməkdaşlığı və Asiya-Sakit okean regionunda tərəqqi və sabitlik", "Çoxqütblülük və dəyişən beynəlxalq düzən" mövzularında plenar iclaslarında qlobal, o cümlədən Asiya-Sakit okean regionunda təhlükəsizlik məsələləri müzakirə olunub.

Qeyd edək ki, 2006-cı ildən keçirilən ənənəvi Syanşan Forumu yüksək rütbəli hərbçilərin, dövlət rəsmilərinin, tədqiqatçıların, ekspertlərin iştirakı ilə dünyada, xüsusən də Asiya-Sakit okean regionunda təhlükəsizlik məsələlərinin müzakirəsi üçün platforma rolunu oynayır. Qərb ölkələrinin dominantlığı ilə keçirilən təhlükəsizlik forumlarından fərqli olaraq, Syanşan forumunda inkişaf etməkdə olan və kiçik ölkələrin də təhlükəsizlik məsələləri diqqətdə saxlanılır. Elə Syanşan forumunun "Çoxqütblülük və dəyişən beynəlxalq düzən", "Qlobal Cənub və dünyanın dinc inkişafı", "ASEAN və Asiya-Sakit okean təhlükəsizlik arxitekturası", "Şimal-şərqi Asiya təhlükəsizliyinin qorunması" və digər panel iclasları məhz qlobal təhlükəsizliyin təminatında inkişaf etməkdə olan ölkələrin də sözünün dinlənilməsinə şərait yaradır. Üç günlük forum ədalətli beynəlxalq düzən üçün Cənub-Cənub əməkdaşlığının gücləndirilməsi, Şimal-Cənub birgə fəaliyyətinin müzakirəsi üçün yeni imkanlar yaradıb. Forumun panel iclaslarında süni intellekt, davam edən münaqişələr, kosmos və dəniz təhlükəsizliyi, Avropada təhlükəsizliyin təkamülü, Yaxın Şərqdə sülh baxışı, beynəlxalq silah nəzarətinin gələcəyi, terrorla mübarizə kimi mövzular da diqqətdə olub.



*Təlim*

# Yüksək döyüş hazırlığı qələbənin rəhnidir

Bölmələrin döyüş hazırlığı daim diqqət mərkəzində saxlanılır. Hər bir əsgərin fərdi hazırlığından başlayan döyüş hazırlığı manqanı, taqımı hər an döyüş tapşırıqlarını yerinə yetirməyə hazırlayır, bilik və bacarıqlarını daha da təkmilləşdirməyə xidmət edir. Bunun üçün bölmə komandiri əzmlə çalışır ki, onun tabeliyində olan şəxsi heyət yüksək döyüş vərdişlərinə yiyələnsin. Bu məqsədlə o, keçirilən təlim-məşqlər zamanı əsgərlərə məşğələnin bütün incəliklərini izah edir və praktiki yerinə yetirilməsini nəzarətdə saxlayır.

Otuz ilə yaxın erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş doğma torpaqlarımızda bu gün Azərbaycan əsgərinin xidmət etdiyini, təlim keçdiyini görəndə qürur hissi keçiririk. Bu torpaqların yağılardan azad edilməsi Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində mümkün olub. Əsgərləri döyüşə ruhlandıran onların yüksək döyüş və mənəvi-psixoloji hazırlığı idi.

Məşğələ yerində həmsöhbət olduğumuz leytenant Elsevər Manafov Azərbaycan Kooperasiya Universitetini bitirsə də, ömrünü hərbi peşəyə bağlayıb. Onu bu peşəyə sövq edən Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı qələbədir. Elsevər müharibə zamanı universitet tələbəsi idi və çox cəhd göstərib ki, döyüşlərdə iştirak etsin, lakin qismət olmayıb. Ali təhsilini başa vurandan sonra "Ehtiyat zabit hazırlığı" kursuna qəbul olaraq, hərb sənətinin incəliklərini dərindən öyrənib. Artıq Elsevər düşməndən azad edilmiş ərazilərdə xidmətini şərəflə davam etdirir. Tabeliyində olan əsgərlərə atıcı silahların "dil"ini əzmlə öyrədir.

Leytenant Elsevər Manafov dedi: "Orta məktəbdə oxuduğum illərdə torpaqlarımızın 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal edildiyini və hələ də ölkəmizin müharibə şəraitində olduğunu öyrənmişdim. Həmişə hərbçi olmaq arzusunda olsam da, hərbi məktəbdə oxumaq qismətim olmadı. Arzuma ali təhsilimi başa vurandan sonra nail oldum və seçimimdən çox qürurluyam".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Nicat Hümbətov 2017-ci ildən hərbi xidmətdədir. Əslən Laçın rayonundan olan hərbi qulluqçu torpaqlarımızın azadlığı uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib.

Nicat hazırda işğaldan azad edilmiş ərazilərdə xidmətini uğurla davam etdirir. O, bundan qürur duyduğunu dedi. Komandiri olduğu manqanın şəxsi heyətinə döyüş vərdişlərini böyük həvəslə aşılayır. Hər bir əsgər istifadəsində olan silahı dərindən bilməlidir. Onların bu cür hazırlığı gələcəkdə istənilən döyüş tapşırığının yüksək səviyyədə icrasına gətirəcəkdir.

Əsgərlərdən Coşqun Hüseynzadə, Cavad Usubzadə, Nazim Mehralıyev, Mahir Poladov, Murad Cəfərzadə, Deniz Canari, Məmməd Məmmədov və başqalarının məqsədləri atış, taktiki, mühəndis hazırlıqlarını və digər keçirilən dərsləri yaxşı mənimsəməkdir. Onlar yaxşı bilirlər ki, döyüşdə uğur qazanmağın tək bir yolu varsa, o da komandirlərinin öyrətdiklərini dərindən öyrənməkdir.

Əsgər Deniz Canari Qəbələ rayonundan hərbi xidmətə çağırılıb. Xidmətinin başa çatmasına bir neçə ay qalıb. İşğaldan azad edilmiş ərazilərimizdə xidmət etməkdən qürur hissi keçirir. Vətənin hər qarış torpağının onun üçün əziz olduğunu bildirdi.

Zabit Elsevər Manafov məşğələ yerində əsgərlərin həm nəzəri, həm də praktiki biliklərini necə mənimsədiyini yoxlamaq üçün onları döyüş düzülüşünə gətirir. Əsgərlərin komandaları necə yerinə yetirməsini diqqətlə nəzərdən keçirir, həm də nəzəri biliklərini yoxlayırdı. Söylə çalışırdı ki, hər biri məşğələni dərindən öyrənsin, komandaları düzgün və vaxtında icra edə bilsin.

Əsgərlərin döyüş tapşırığını vaxtında və düzgün icra etməsi mahiyyətcə yüksək döyüş hazırlığı deməkdir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Ordumuzun maddi-texniki təminatı yüksək səviyyədədir









Maddi-texniki təminat ordunun döyüş qabiliyyətinin ayrılmaz tərkib hissəsidir. Bu təminat ordunun silah-sursat, hərbi texnika, yanacaq-sürtkü materiallarını, tibb ləvazimatları və digər zəruri resurslarla təmin olunmasını özündə ehtiva edən kompleks sistemdir. Müasir zamanda maddi-texniki təminat xidmətinin səmərəli işi döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinin açarına çevrilir. Vətənimizin ərazi bütövlüyü və suverenliyinin əsas təminatçısı olan Azərbaycan Ordusu plana uyğun olaraq öz maddi-texniki bazasını fəal şəkildə inkişaf etdirir və müasirləşdirir. Bu tendensiya təkcə müasir silahlarla deyil, həm də müxtəlif şəraitdə döyüş əməliyyatlarının aparılması üçün bütün zəruri vasitələrə şamil olunur.

Son illər Azərbaycanda hərbi sənaye kompleksinin inkişafına ciddi diqqət yetirilir ki, bu da ordunun təchizatı məsələsində özünütəminetmə səviyyəsinin yüksəlməsinə xidmət edir. Eyni zamanda, yüksək texnologiyalı silah və hərbi texnikanın alınması üzrə beynəlxalq tərəfdaşlarla fəal əməkdaşlıq da davam etdirilir.

Azərbaycan Ordusunun maddi-texniki təminatı bir çox sahələri əhatə edir: Sülh dövründə qoşunların lazımi təchizatla təmin edilməsindən tutmuş döyüş şəraitində əməliyyatların təchizatına qədər. Bu vəzifələrin uğurla həyata keçirilməsi müxtəlif xidmətlər arasında dəqiq əlaqələndirməni, logistika infrastrukturunun modernləşdirilməsini, eləcə də təchizat proseslərinin optimallaşdırılmasına imkan verən müasir informasiya texnologiyalarının tətbiqini tələb edir.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin təmin edilməsində ən mühüm istiqamətlərdən biri də silah və hərbi texnikanın hazırlanması və modernləşdirilməsidir. Son illər arsenalımıza müasir hərbi texnikalar qəbul olunur, ordumuzun potensialı artırılır. Buna misal olaraq, pilotsuz uçuş aparatlarının (PUA) alınmasını göstərmək olar ki, bu da ölkəmizin hərbi strategiyasının mühüm tərkib hissəsinə çevrilib. Yeni texnologiyalardan istifadə döyüş əməliyyatlarının effektivliyini əhəmiyyətli dərəcədə artırmağa, şəxsi heyət arasında itkiləri minimuma, həmçinin düşmənin əsas hədəflərinə məqsədyönlü zərbələr endirməyə imkan verir. Bunun bariz nümunəsini 44 günlük Vətən müharibəsində aydın şəkildə gördük.

Müasir silahların alınması ilə yanaşı, maddi-texniki təminatın ən mühüm aspektləri geyim və ərzaq təminatıdır. Şəxsi heyətin əsas həyati ehtiyaclarını normalara uyğun təmin etməklə yanaşı, həm də onların sosial-məişət, əşya-əmlak və ərzaq təminatını yüksək səviyyədə saxlamaq ən önəmli məqsədlərdən biridir. Bu səbəbdən milli ordunun təməli qoyulduqdan sonra rəhbərlik tərəfindən qarşıya qoyulan əsas tapşırıqlardan biri də orduda yüksək keyfiyyət və müasir standartlara cavab verən təminat sistemini yaratmaq idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin davam etdirdiyi uğurlu ordu quruculuğu siyasətinin bir istiqaməti də məhz orduda maddi-texniki təminatın yüksəldilməsinə yönəlib.

Cənab Prezidentin göstərişinə əsasən, şəxsi heyətin təchizat, təminat və sosial-məişət şəraitinin yaxşılaşdırılması, o cümlədən əşya-əmlak, ərzaq təminatını gücləndirmək məqsədilə görülən işlər sürətlə davam edir. Bu sahədə atılan uğurlu addımların nəticəsidir ki, Azərbaycan Ordusunun şəxsi heyəti bütün növ təminatla tam təchiz olunub. Əşya və ərzaqla təminat işinin təşkili ilə daha yaxından tanış olmaq üçün Mərkəzi Ərzaq Anbarı və Mərkəzi Əşya Bazasında yaradılan şəraitlə tanış olduq.

Mərkəzi Ərzaq Anbarının rəisi polkovnik Camal Kərimov ilə söhbətimiz zamanı öyrəndik ki, Azərbaycan Ordusunda bütün ərzaq normativləri hərbi qulluqçuların təyinatına görə müəyyən olunur. "Müdafiə nazirinin müvafiq qərarına əsasən, mövcud yeddi ərzaq norması vardır. Bu da qoşun növünün gündəlik fəaliyyətinə görə hesablanır. Misal olaraq qeyd etmək olar ki, orduda ən yüksək kalorili yeməklərdən istifadə olunan ərzaq norması məhz xüsusi təyinatlı qoşun növlərinə məxsusdur. Buraya Xüsusi Təyinatlı Qüvvələr, Əməliyyat (Komando) hərbi hissələri, Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları və s. daxildir.

Onu da vurğulamaq istərdim ki, ordumuzun ərzaq təminatının ən qabaqcıl ordularla müqayisəedilməcək səviyyədə olmasına baxmayaraq, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğının nəticəsində bu tendensiya ildən-ilə yüksəlməkdədir. Azərbaycan Ordusunda istifadə olunan bütün ərzaq məhsulları Mərkəzi Ərzaq Anbarına gətirildikdə ilk olaraq ciddi keyfiyyət yoxlamasından keçir. Burada bu məqsədlə laboratoriya və Mərkəzi Hərbi Baytarlıq Laboratoriyası fəaliyyət göstərir. Ərzaq məhsullarının istifadəyə yararlı və ya yararsız olduğu müəyyənləşdirilir, dövlət standartlarına cavab verilməsinə xüsusi diqqət yetirilir və ekspertiza rəyi verilir. Bu prosedurdan keçən məhsullar məhsul növündən asılı olaraq çeşidlənir, anbarlara yerləşdirilir. Hər anbarın məhsula uyğun saxlama şəraiti mövcuddur ki, bu da ərzaqların uzun müddət saxlanılmasına imkan verir.

Anbarların girişində hər bir qidanın nümunəsi qoyulur - konservləşdirilmiş qidalar, yarmalar, soyuq qəlyanaltılar, ləpə və müxtəlif növ ərzaq məhsulları çeşidləri. Hal-hazırda geniş ərzaq çeşidimiz mövcuddur. Sezona uyğun meyvə-tərəvəz, milli mətbəximizə məxsus yeməklər və konservləşdirilmiş ərzaq məhsullarından ibarət qida rasionu təyin edilir. Əlavə olaraq qeyd etmək lazımdır ki, çətin relyefli ərazilərə uzunmüddətli ərzaq təminatının həyata keçirilməsi prosesi də hər zaman aktual məsələlərdən biridir. Bu təminat növünün yerinə yetirilməsi üçün də ilin əvvəlindən lazımi sifarişlər verilir və ərzaq təminatı planına uyğun olaraq həyata keçirilir. Mərkəzi Ərzaq Anbarından Müdafiə Nazirliyinin tabeliyində olan bütün hərbi hissələrə, o cümlədən Naxçıvan Muxtar Respublikası və işğaldan azad edilmiş ərazilərdə dislokasiya olunmuş bölmələrə ərzaqlar göndərilir. Bunun üçün avtomobil və dəmir yolundan istifadə olunur", - polkovnik Camal Kərimov dedi.

Daha sonra Mərkəzi Ərzaq Anbarının laboratoriyasında ərzaq məhsullarının yoxlama prosesinin şahidi olduq. Daxil olan ərzaq nümunələri diqqətlə yoxlanılır, standartlara uyğun olmasına nəzarət edilir. Məhsullar burada fiziki-kimyəvi, bakterioloji, radioloji və toksikoloji müayinələrdən keçir. Yüksək keyfiyyət tələblərinə cavab verən məhsullar qəbul edilərək, ərzaq rasionuna daxil olunur.

Mərkəzi Ərzaq Anbarı ilə tanışlığımız yekunlaşdıqdan sonra Mərkəzi Əşya Bazasına yollandıq.

Mərkəzi Əşya Bazasının rəisi polkovnik-leytenant Emin Məcidov bildirdi ki, baza öz işini müdafiə nazirinin, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin və müdafiə nazirinin müavini - Baş Direktorun əmr, sərəncam və göstərişlərinə əsasən təşkil edir. "Bizim əsas vəzifəmiz Azərbaycan Ordusunun şəxsi heyətinin əşya və əmlak ilə vaxtında təmin olunmasına, toxunulmaz ehtiyatlarının saxlanılmasına, əşya və əmlakın müəssisələr tərəfindən qəbul edilərək anbarlarda çeşidlər üzrə yerləşdirilməsinə nəzarət etməkdən ibarətdir", - zabit dedi.

Polkovnik-leytenant E.Məcidov onu da bildirdi ki, əşya və əmlak təminatı şəxsi heyətin istənilən iqlim şəraitində döyüş tapşırıqlarının yerinə yetirilməsini təmin edən zəruri geyim, ayaqqabı və avadanlıqla təmin edilməsinin təşkilidir. "Burada əşya təminatı, texniki və texniki-təbliğat vasitələri mövcuddur. Əşya təminatına gəldikdə, Azərbaycan Ordusunun geyim təchizatının müasirləşdirilməsinə xüsusi diqqət yetirilir. Ordumuz aşınmaya davamlılıq və funksionallıq baxımından beynəlxalq tələblərə cavab verən hərbi geyim formalarının yeni standartlarına artıq keçməkdədir. Müdafiə nazirinin müvafiq qərarına əsasən, müəyyən edilmiş əşya təminat norması vardır ki, buna uyğun olaraq şəxsi heyət geyimlə yanaşı, zəruri ləvazimatlarla, o cümlədən zirehli dəbilqə, səhra çantaları, yataq dəstləri, şəxsi mühafizə və gigiyena vasitələri ilə də təmin olunur".

Bundan başqa, maddi-texniki təminat ilə şəxsi heyətin döyüş ruhunun yüksəldilməsində sıx əlaqə bağlarının varlığı haqqında danışan polkovnik-leytenant Emin Məcidov dedi ki, təminat Mərkəzi Əşya Bazasından birbaşa təyin olunan yerlərə qatar və böyük yük maşınları ilə, zərurət olduğu halda hava yolu ilə təyyarələrlə də çatdırılır. Hərbi qulluqçuların əşya-əmlak təminatı (geyim, ayaqqabı, zəruri avadanlıq və digər əşyalar) ilə təmin edilməsi yüksək əhval-ruhiyyəni, habelə döyüş ruhunu qorumağa kömək edən vacib komponentdir.

Yüksək keyfiyyətli geyim, düzgün hərbi avadanlıq - bütün bunlar döyüşçünün fiziki rahatlığına birbaşa təsir göstərir. Etibarlı və keyfiyyətli hərbi geyim və avadanlıq hava şəraitindən, mexaniki zədələrdən lazımi qorunmanı təmin edir. Sözsüz ki, hərbi geyim orduya mənsubluğu, vahid komandanlıq prinsipini və bölmələrin birliyini simvollaşdırır. Bir sözlə, əşya-əmlak təminatı təkcə maddi-texniki bir iş deyil, həm də ordunun döyüş effektivliyini və mənəvi-psixoloji vəziyyətini yüksəltmək üçün vacib elementdir", - deyən polkovnik-leytenant E.Məcidov sözünü bitirdi.

Onu da vurğulamaq lazımdır ki, Mərkəzi Əşya Bazasında maddi vəsaitlərin keyfiyyətli saxlanması və qoşunlara verilməsi məqsədilə yeni saxlanclar inşa edilib, bəzi saxlanclarda isə əsaslı təmir işləri görülərək müasir standartlara uyğunlaşdırılıb. Hal-hazırda bazanın ərazisində 20-dən çox saxlanc binası fəaliyyət göstərməkdədir.

Gördüklərimiz onu deməyə əsas verir ki, ordumuzun ərzaq təminatı sistemində onların saxlanılması üzrə müasir texnologiyalar tətbiq edilir. Bundan başqa, şəxsi heyətimizin istənilən iqlim şəraitində xidmət aparması, qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməsi üçün əşya və əmlak təminatı da yerindədir. Bu da onun sübutudur ki, Azərbaycan Ordusu respublikamızın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü əzmlə qorumaq qüdrətindədir.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi təhsil qüdrətli ordunun təməlidir

*Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrinə yeni qəbul olan kursantların təntənəli andiçmə mərasimləri keçirilib.*

*Mərasimlərdə Milli Müdafiə Universitetinin, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəhbərliyi və şəxsi heyəti, Müdafiə Nazirliyinin nümayəndələri, hərbi qulluqçular, müəllimlər, valideynlər, eləcə də digər qonaqlar iştirak ediblər.*

*Andiçmə mərasimlərində əvvəlcə hərbi orkestrin müşayiəti ilə döyüş bayraqları təntənəli surətdə sıra meydanına gətirilib.*

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.*

*Təntənəli mərasimlərdə çıxış edənlər kursantları və onların valideynlərini əlamətdar gün münasibətilə səmimi qəlbdən təbrik edib, gələcəyin hərbi qulluqçularına Azərbaycan xalqına layiqli övlad, Vətənə, xalqa və Hərbi Anda sadiq olmağı arzulayıb, nümunəvi, intizamla xidmət etməyi tövsiyə ediblər.*

*Sonra kursantlar təntənəli şəkildə Vətənə sədaqət andı içib, hərbi marşın sədaları altında tribuna önündən keçiblər.*

*Sonda valideynlər hərbi təhsil müəssisələrində yaradılan təlim-tədris, məişət şəraiti və ərazi ilə tanış olublar.*

*Qəzetimizin əməkdaşları mərasimlərdə iştirak edərək, kursantların fikirlərini qələmə alıblar.*

**"Azərbaycan Ordusu"**

## Ümummilli Lider Heydər Əliyev:

*"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir."*



**Kursant Ramiz Bağırov:**

- Bu gün bizim üçün həyatın yeni, mühüm mərhələsi başlayır. Hərbi Andı qəbul edərək şanlı Azərbaycan Ordusunun sıralarına qoşulduq. Bu, xüsusi məqamdır - hərbi xidmətlə bağlı arzularımızın gerçəyə çevrildiyi gündür.

Hər birimiz hərbi kollecə daxil olanda artıq bu seçimin vacibliyini dərk etmişik. Gizir rütbəsinə gedən yol təkcə yeni bilik və bacarıqlara yiyələnməkdən ibarət deyil, bu, həm də daim öz üzərində işləməkdən, xarakterin möhkəmləndirilməsindən və əsl hərbçi üçün zəruri olan keyfiyyətlərin formalaşdırılmasından keçir: hərbi intizam, məsuliyyət, istənilən vəziyyətdə çevik qərar qəbuletmə bacarığı kimi.

Qarşıda bizi intensiv təhsil, hərbi hazırlıq və təlimlər gözləyir. Əminəm ki, hər birimiz bu əhəmiyyətli tədris dövrünə hazırıq, çünki biz bu yolu şüurlu şəkildə və tam məsuliyyətlə seçmişik. Bu yol fədakarlıq tələb edən, eyni zamanda, dərin fəxr hissi aşılayan şərəfli yoldur. Biz dərk edirik ki, üzərimizə böyük məsuliyyət düşür və bu, bizi həvəs və maraqla oxumağa sövq edir.



**Kursant Ceyhun Məmmədli:**

- Hər bir insanın həyatında unudulmaz günlər olur. Xatırlayıram, Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olduğumda və ilk dəfə orada Hərbi Andı qəbul etdikdə çox həyəcanlanmışdım. Liseyi müvəffəqiyyətlə başa vurub artıq peşəkar zabit olmaq üçün ali hərbi təhsil alacağım Heydər Əliyev adına Hərbi İnstitutda and içirəm. Bu sevinci sözlərlə ifadə etmək çətindir. Bu yolda ən böyük dəstəkçim ailəm olub. Hərbçi ailəsində böyümüşəm. Atamın seçdiyi bu şərəfli yolun davamçısı olmaq istədiyimi ailəmə bildirdikdə çox qürurlanmışdı. Atamın təcrübəli zabit kimi mənimlə olan söhbətləri, verdiyi tövsiyələr peşə seçimimdə böyük rol oynayıb. Onun peşəkarlığı və liderlik xüsusiyyətləri mənə öz üzərimdə çalışmaq, hər bir çətinliyə sinə gərmək və bu şərəfli yolda irəliləmək üçün motivasiya, həmçinin güc verib. Bu mərasimdən sonra hər gün daha çox öyrənmək və inkişaf etmək üçün əlimdən gələni edəcəyəm. Məqsədim hərbi sahədə mükəmməl nəticələr əldə etmək, qüdrətli ordumuzun peşəkar zabitlərindən olmaqdır.



**Kursant İbrahim Süleymanov:**

- Hər birimiz üçün bu gün hərbi peşəyə gedən yolun başlanğıcı, çoxəsrlik ənənələrə sadiq qalaraq, böyük qələbələrə arxalanaraq, Vətənimizi qoruyan qüdrətli hərbi qardaşlığın bir hissəsinə çevrildiyimiz andır.

44 günlük Vətən müharibəsi zamanı ordumuzun doğma torpaqlarımızı azad etməsi, öz üzərinə düşən vəzifələri şərəflə yerinə yetirməsi biz gənclər üçün xüsusi nümunədir. Biz ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini hər zaman yad edəcək, onlardan şücaət və igidlik nümunəsi alacağıq.

Biz kursantlar çalışacağıq ki, onlar kimi vətənpərvər və bacarıqlı hərbçilər olaq. Bunun üçün ciddi sınaqlardan uğurla keçməli, hərbi vərdişlərə yiyələnməli, savadlı, intizamlı və əzmkar olmalıyıq.



**Kursant Murad Məmmədov:**

- Bu gün hərbi kollecin kursantı olaraq and içdik. Öz böyük missiyamızı yerinə yetirməyə - Vətənə xidmət etməyə bir addım da yaxınlaşdıq. Bu gün hər birimiz üçün əlamətdar gündür. Vətən müdafiəçiləri sıralarına qoşulmaq yolunda ilk addımımızdır. Hərbi And əsrlər boyu qeyd olunan tarixi ənənədir. Biz sevinirik ki, bu tarixi ənənəyə çevrilmişik.

Azərbaycanın qədim tarixi xalqımızı xarici təhlükələrdən qoruyan qəhrəmanların adları ilə doludur. Onların hamısı torpaqlarımızı qorumağa sədaqət andı içiblər, xalqın təhlükəsizliyi və firavanlığı üçün canlarından keçiblər.

Hərbi Andın tarixi bizə əzmkarlıq, sədaqət və fədakarlığa hazır olmağı öyrədir. Hərbi mundir geyinən hər kəs başa düşməlidir ki, onun sözləri təkcə komandirləri, yoldaşları qarşısında deyil, həm də özü, vicdanı, Vətəni qarşısında anddır.



**Kursant Fazil Ümüdzadə:**

- Bir kursant olaraq, Hərbi Tibb Fakültəsində andiçmə mərasimi həyatımda yaşadığım ən həyəcanlı və qürurlu anlardan biri idi. Bu mərasimə qədər uzun müddət davam edən intensiv hazırlıq və məşqlər keçirildi. Hər gün Vətənə və xalqa xidmət etməyin nə qədər böyük məsuliyyətli iş olduğunu bir daha anladım. Lakin bu andiçmə mərasimində sıraya düzülərkən hər şeyin məhz bu an üçün olduğunu dərk etdim.

Mərasim başladıqda ürəyim sürətlə döyünürdü. Dövlət Himni səsləndirilərkən, bir anlıq gözlərimi yumub Vətənim üçün nə qədər böyük bir addım atdığımı düşündüm. Hər bir notu ürəyimdə hiss etdim və bu andın nə qədər ciddi və məsuliyyətli olduğunu bir daha düşündüm. Himndən sonra zabitlərin və fakültə rəhbərlərinin danışdıqları, bizə verdikləri tövsiyələr və göstərdikləri dəstək çox təsirli idi. Onların gözlərində gördüyüm qürur və inam mənə daha da güc verdi.

Nəhayət, and içmək üçün sıra mənə gələndə dərin bir nəfəs aldım. "Mən, Vətənə və xalqa sədaqətlə xidmət edəcəyimə, hərbi həkim şərəfini layiqincə qoruyacağıma and içirəm!" sözlərini söyləyərkən, həm böyük bir məsuliyyət daşıdığımı, həm də bu yolu seçdiyim üçün qürurlandığımı hiss etdim. Bu andı içdikdən sonra artıq qarşıda bizi çətin, lakin şərəfli bir yolun gözlədiyini bilirdim.

Həyatım boyu valideynlərimin mənə verdiyi dəstəyi unutmayacağam və bu andıma sadiq qalmaq üçün əlimdən gələni edəcəyəm.

Mərasimin sonunda digər kursant yoldaşlarımla birlikdə təntənəli marşla keçərkən, artıq hər birimiz fərqli insanlar idik. Biz artıq sadəcə tələbə deyildik; biz hərbi həkim olmaq yolunda ilk addımını atan kursantlar idik. Bu mərasimdən aldığım təəssüratlar mənə gələcəkdəki bütün çətinlikləri dəf etmək üçün güc verəcək.

**Kursant Murad Əhmədli:**

- 2022-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Gümüşlü kənd məktəbinin 9-cu sinfini bitirib Heydər Əliyev adına Hərbi Liseyə qəbul oldum. Çox sevinirəm ki, məqsədimə çatmaq üçün növbəti mərhələ olan Heydər Əliyev adına Hərbi İnstituta qəbul oldum. Bu gün Ulu Öndərin adını daşıdığı bu təhsil ocağında Hərbi Andı qəbul etmək mənim üçün böyük şərəfdir. Andımızda da dediyimiz kimi, hər zaman Vətənim Azərbaycana və onun xalqına sadiq olacağam. Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaq, bundan ötrü qanımı və canımı əsirgəməyəcəyəm!



**Kursant Cavid Şərfalıyev:**

- Hərbçi ailəsində böyüdüyüm üçün bu peşəyə xüsusi marağım olub. Hər zaman bu şərəfli yolu seçən atamın davamçısı olmağı arzulayırdım. Atam kimi hərbi mundir geyinərək, Vətənim Azərbaycana layiqli övlad olmaq üçün daim öz üzərimdə çalışırdım. Bu gün mənim üçün xüsusi bir gündür. Çox sevinirəm ki, Heydər Əliyev adına Hərbi İnstituta qəbul olmaq mənə də qismət oldu. Seçdiyim bu müqəddəs yolda ilk addımları ataraq Hərbi Andı qəbul etdim. Gələcəyin peşəkar zabiti olmaq üçün burada bizə yaradılan imkanlardan maksimum faydalanmalı, xalqımızın bizə olan etimadını hər zaman doğrultmalıyıq.



*İkinci Qarabağ müharibəsindən əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarının birində demişdi: "Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcək". Dövlət başçımız onu da qətiyyətlə bildirmişdi ki, vaxt gələcək, bütün torpaqlarımızı işğalçı qüvvələrdən azad edəcəyik, ölkəmizin bütün ərazilərində üçrəngli bayrağımız qürurla dalğalanacaq.*

*Medallı igidlərimiz*

# Bu qürur həmişə olacaq

Ermənistan 2020-ci il sentyabrın 27-də yeni ərazilər işğal etmək niyyəti ilə genişmiqyaslı hücuma başladı. Ali Baş Komandanın əmri ilə ordu hissələrimiz əks-hücuma keçərək düşmən sədlərini dağıtdı. Vətən müharibəsi tarixi qələbə ilə başa çatdı. Cənab Prezidentin "Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, qələbəni əldə edən əsgərdir, zabitdir" kəlamı Azərbaycan hərbçilərinə böyük ehtiramı ifadə etdi.



Mayor İlham Abdullazadə də Vətən müharibəsi iştirakçısıdır. O, Sabirabad rayonunun Şəhriyar kəndində anadan olub. Birinci Qarabağ müharibəsində şəhid olan Məlik Məmmədovun adını daşıyan məktəbdə təhsil alıb. 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. Yüksək hərbi biliyə, təcrübəyə malik olmaq üçün səylə çalışıb, yaxşı oxuyub.

2008-ci ildə "N" hərbi hissəsində gənc zabit kimi xidmətə başlayıb. Tabeliyindəki şəxsi heyətin vətənpərvərlik hisslərinin yüksəldilməsinə həmişə xüsusi diqqət yetirib. Xidmətini müxtəlif bölgələrdə davam etdirib. Vətən müharibəsində onun xidmət etdiyi hərbi hissə də çətin döyüş əməliyyatlarını uğurla yerinə yetirib. Mayor İlham Abdullazadə də Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocalının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

Azərbaycan zabiti adını şərəflə daşıyan mayor İlham Abdullazadə "N" hərbi hissəsində xidmətini davam etdirir. O, qalib ordunun zabiti kimi qürurlanır...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# "Dəqiq artilleriya atəşi qələbəni təmin edir"

**(Əvvəli 1-ci səhifədə)**

Top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Amin Məmmədov bildirdi ki, şəxsi heyət mütəmadi olaraq onlara təhkim olunmuş döyüş texnikası ilə dağlıq və düzənlik ərazilərdə praktiki məşqlərə cəlb olunur. "Məşqlərin əsas məqsədi istənilən an şərti düşmənin yüksəkliklərdə, yamaclarda və təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını, atəş nöqtələrini məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin edərək, tapşırıqları vaxtında və nöqsansız yerinə yetirə bilməkdir. Keçirilən məşqlərdə bölmələrin "döyüşə" və "səfərə" düzülüşü, hədəflərin təyin



edilməsi, atış ərazisinin seçilməsi, mövqenin dəyişdirilməsi və xüsusi hazırlıq üzrə normativlər icra edilir. Məşğələlər və təlimlər əsgərlərin praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də ağır şəraitdə aparılan müasir döyüş hazırlığının səviyyəsinin artırılması üçün çox vacibdir".

Döyüş texnikasının heyət nəfərləri ilə söhbət zamanı üzlərindəki ifadələrdən qalib ordunun əsgəri olmaqdan qürur hissi keçirdiklərini hiss etməmək mümkün deyildi. Onların məğrur baxışları insanı ovsunlayırdı.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Tacir Qasımov bildirdi ki, məşğələlər yüksək səviyyədə keçirilir. "Komandirlərimizin sayəsində topun bütün sirlərinə yiyələnmişik. Heç bir çətinlik çəkmədən istənilən komandanı icra edə bilərik. Qazandı-



ğımız uğurlara görə komandir heyətimizə borcluyuq. Onlar bizi bacarıqlı hərbçilər kimi yetişdiriblər. Gündəlik məşğələ və təlimlərin səmərəli keçirilməsinin nəticəsidir ki, ordumuz düşmən üzərində böyük qələbə qazandı. Müharibə zamanı açılan dəqiq atəşlərlə düşmənin döyüş texnikaları, hərbi hissələri və canlı qüvvəsi məhv edildi. Müharibədən sonra da döyüş vərdişlərimizi daha da möhkəmləndirmək üçün təlimlərimiz davam edir. Biz istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə hazırıq".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Maqsud Şirinov qeyd etdi ki, baş tuşlayıcı olaraq onun üzərinə böyük məsuliyyət düşür. "Bizə təhkim olunan döyüş texnikasının təyinatını və xüsusiyyətlərini heyətin hər bir üzvü yaxşı bilir. Baş tuşlayıcı olaraq öz məsuliyyətimi dərk edirəm. Artilleriya ixtisası riyaziyyat və həndəsə elmləri ilə sıx bağlıdır. Hələ orta məktəbdə oxuyarkən bu fənlərə xüsusi marağım olub. Oxuduğum sinifdə ən çətin və məntiqi misalları hamıdan birinci həll edirdim. Ona görə də bu sahədə daha yararlı olacağıma inandım. Müasir dövrdə döyüş tapşırıqlarının düzgün və vaxtında yerinə yetirilməsi hər bir zabit, gizir və əsgərdən yüksək nəzəri-hərbi biliklə yanaşı, fiziki-psixoloji hazırlıq da tələb edir. Odur ki, döyüşdə uğur qazanmaq üçün müasir silahlara malik olmaq hələ tam yetərli deyil. Əsas bu silahlardan istifadə qaydalarını peşəkarcasına öyrənmək, fiziki cəhətdən hazırlıqlı olmaq, qazanılan nəzəri-təcrübi biliklərdən düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv etmək üçün maksimum səmərəli istifadə etməkdir", - deyə M.Şirinov dedi.

Söhbətimizə qoşulan əsgər Sənan Hafizov dedi ki, keçirilən məşğələ və təlimlər onların bacarıqlı hərbçi kimi formalaşmasında mühüm yer tutur. "Hərbi xidmət hər birimiz üçün əhəmiyyətli bir dövrdür və bu dövrdə döyüşçüyə xas olan vacib vərdişləri mənimsəyirik, həmçinin bir çox mənəvi keyfiyyətlərə alışırıq. Komandirlərimizin öyrətdiklərini mənimsəyir, təlimlər zamanı praktiki nümayiş etdiririk. Mən və əsgər yoldaşlarım fəxr edirik ki, qalib orduda xidmət edirik".

Əsgər İsmayıl Axundov qeyd etdi ki, hərbi xidmət onlardan intizamlı olmaq, hərbi sirri qoruyub saxlamaq, dözümlülük, cəsarət tələb edir. "Bura hər birimiz üçün həyat məktəbidir. Bu məktəbdə hərbi bilikləri öyrənirik. Daha cəsarətli, güclü və iradəli formalaşırıq. Bu vərdişləri bizə aşılayan komandirlərimizə dərin minnətdarlığımı bildirirəm. Hərbi xidmətimin başa vurmağa az qalıb, ancaq ordu sıralarında qalıb komandirlərimizlə çiyin-çiyinə Vətənimizin müdafiəsində dayanmaq istəyirəm", - deyə hərbi xidmətə Bakı şəhərindən çağırılan əsgər İ.Axundov orduda keçirdiyi günlərin dəyərindən, təlim və məşğələlərdə peşəkarlıq qazanmasından danışdı.

Əsgər Zaur Elyazov da yüksək döyüş hazırlığına malik olmalarında keçirilən məşğələlərin böyük rolu olduğunu qeyd etdi: "Praktiki məşğələlərimiz öncədən təyin edilmiş açıq ərazidə, nəzəri dərslərimiz sinif otaqlarında keçirilir. Biz də daim hərbi biliklərimizi artırır, bacarıqlarımızı təkmilləşdiririk. Komandirlərimizin bizə olan diqqəti yüksək səviyyədədir. Burada yaradılan sosial-məişət şəraiti arzuediləndir. Bu gün ordu sıralarında xidmət edən hər kəs Vətənə müqəddəs borcunu inamla ödəyir. Xalqımız da əmin olsun ki, Vətənimizi göz bəbəyimiz kimi qoruyacaq, əsgər adını uca tu-



tacaq, böyüklərimizə daim başucalığı gətirəcəyik".

Beləliklə, əsgərlərimizlə söhbətdən sonra əminliklə deyə bilərik ki, belə igid, vətənpərvər, yüksək döyüş hazırlığına malik oğulları olan ordunun qarşısında heç bir düşmən qüvvəsi dayana bilməz.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## Blinken Azərbaycanla Ermənistan arasında davamlı və layiqli sülhün vacibliyini vurğulayıb

ABŞ Dövlət katibi Antoni Blinken Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı zamanı Azərbaycanla Ermənistan arasında davamlı və layiqli sülhün vacibliyini bir daha təsdiqləyib.

AZƏRTAC-ın məlumatına görə, bu barədə ABŞ Dövlət Departamentinin yaydığı məlumatda deyilir. Bildirilir ki, Blinken tərəflər arasında son irəliləyişləri, o cümlədən sərhədlərin delimitasiyasının tənzimlənməsinə dair razılaşmanı alqışlayıb.

Tərəflər, həmçinin ABŞ-Ermənistan münasibətlərinin genişlənməsinə dair müzakirə aparıblar.

## ANAMA: Ötən həftə 1115 hektar ərazi minadan və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatlarına dair həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, sentyabrın 9-dan 15-dək Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 44, tank əleyhinə 15 mina və 690 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1115 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

Tarix yazan oğullar

# Ellər unutmayır öz mərd oğlunu...

*Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi şəhidlərimizin xatirələrinə həsr edilmiş tədbirləri uğurla davam etdirir. Müdafiə Nazirliyinin təsdiq etdiyi tədbirlər planına əsasən, Mərkəzin təbliğat-təşviqat qrupunun üzvlərinin şəhər və rayonlarda, kənd və qəsəbələrdə keçirdikləri anım mərasimləri, xatirə gecələri ictimaiyyət tərəfindən maraqla qarşılanır.*

"N" hərbi hissəsində şəhid polkovnik-leytenant Rəşad Sadıqovun xatirəsinə həsr olunmuş tədbirdə onun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, suverenliyi və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Bildirildi ki, polkovnik-leytenant Rəşad Sadıqovun hərbi xidməti, döyüş yolu bugünkü və gələcək nəsillərə örnəkdir. O, ata yurdu olan Laçın rayonunun işğaldan azad olunmasını arzulayırdı.



Rəşad Sadıqov 1978-ci ildə Laçın rayonunda anadan olub. 1984-1992-ci illərdə Laçın şəhər 2 saylı tam orta məktəbdə təhsil almışdı. Laçın şəhəri işğal olunduqdan sonra ailələri Şəmkir rayonunda məskunlaşmışdı. 1992-1995-ci illərdə təhsilini Əhməd Cavad adına Şəmkir şəhər orta məktəbində davam etdirmişdi. Həkim olmaq istəyirdi. Xocalı faciəsindən sonra zabit olmağı qərara almışdı. Arzusunu gerçəkləşdirmək üçün Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə (indiki Heydər Əliyev adına İnstitut) qəbul olub. Dərslərdə, məşğələlərdə, təlimlərdə fəal iştirak edirdi, bilik və təcrübəsini həmişə artırmağa çalışırdı, nümunəvi kursant kimi tanınırdı.

Ali hərbi məktəbi bitirdikdən sonra Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində xidmətə başlayır. Komandiri olduğu taqımın şəxsi heyəti döyüş tapşırıqlarını nizamnamə qaydalarına uyğun olaraq yerinə yetirib. Komandanlıq tərəfindən fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görülüb.

Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edən R.Sadıqov hərbi hissənin qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirib. O, oktyabrın 30-da Güləbird kəndi uğrunda döyüşlərdə şəhid olub. Şəmkir rayonunun Çaparlı kəndində dəfn olunub.

R.Sadıqov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

İki övladı var...

Tədbirdə mərkəzin əməkdaşları "Əsgərə məktub" layihəsi haqqında da məlumat verdilər. Əsgərlərə müxtəlif bölgələrdən ünvanlanmış məktublar təqdim edildi. Əsgər və zabitlər nümunəvi xidmət edəcəklərini, onlara göstərilən böyük etimadı doğruldacaqlarını bildirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İşıqlı sabahlarımız, parlaq gələcəyimiz

***15 sentyabr. Bu gün ölkəmizdə Bilik Günü kimi qeyd olunur. Bu gün təkcə təhsilə başlanğıc deyil, həm də doğma Vətənimizə və cəmiyyətimizə layiqli vətəndaş olmaq yolunda ilk addım atanların günüdür. Birincilər sevinir, əllərində gül sinfə daxil olmağa tələsirlər. Valideynlər qürurlanır, duyğulanırlar. Bu mənzərənin ağuşunda xoş hisslərə qərq olub düşünürük - bu balalar işıqlı sabahlarımız, parlaq gələcəyimizdir. Balaca olsalar da, gələcəyə böyük ümidlər bəxş edirlər. İndi öz ətrafını işıqlandıran birincilər vaxt gələcək uğurları ilə dünyaya işıq saçacaqlar.***

***Birincilərin sırasında Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman oğullarımızın övladları da var. Onların qəhrəman ataları da xalqımızın xoşbəxt gələcəyi naminə canlarından keçiblər. İnanırıq ki, şəhid övladları da ataları kimi milli-mənəvi dəyərlərimizə, dövlətçiliyimizə layiqli vətəndaşlar olacaq, gələcəkdə çalışacaqları sahələrdə dövlətimizin daha da güclənməsi naminə səylərini əsirgəməyəcəklər. Bu gün onları uğurlu sabahlara aparacaq işıqlı bir yolun başlanğıcıdır. Bu ilin birincilərinin də düşüncələrində tarixi Zəfər var, qəhrəman əsgərlər var, qalib Azərbaycan Ordusu var. Qəzetimizin əməkdaşları məktəbli olmanın sevincini yaşayan fidan balalarımızın təəssüratlarını öyrəniblər.***

**"Azərbaycan Ordusu"**



**Banu Paşazadə:**
- Şəhid Elsevər Paşayevin qızıyam. Atamı soruşanda ki, o niyə gəlmir? Anam deyirdi ki, sənin atan qəhrəmandı, cəbhələrdə düşmənlə döyüşüb. O, torpaqlarımızın azadlığı uğrunda şəhid olub. Bütün şəhidlər uşaqların xoşbəxt olması, firavan yaşaması üçün canlarını qurban veriblər. Atamı xatırlayıram, həmişə gülümsəyirdi. Məni çox istəyirdi. Çoxlu hədiyyələr alırdı mənə, bacıma. Nəzrin böyük bacımdır. Beşinci sinifdə oxuyur. O, mənə dərslərimdə kömək edir. Bacım da, mən də atamızın adına layiq övlad olacağıq. Söz verirəm ki, dərslərimdən əla qiymətlər alacam.

**Zəhra və Mədinə Rəsulova bacıları:**
- Biz şəhid Mirbala Rəsulovun qızlarıyıq. Bu il birinci sinfə gedirik. Atamızın adını həmişə uca tutacağıq. Yaxşı və əla qiymətlərlə oxuyacağıq. Böyüyəndə həkim olmaq istəyirik. Atamız istəyirdi ki, həkim olaq. Biz də yaxşı oxuyacağıq ki, atamızın arzusunu yerinə yetirək. Onun atamızın ruhu bizimlədir. Onda atamızın ruhu şad olacaq ki, qızları əlaçıdırlar. Biz uşaqlar müharibə istəmirik, ona görə ki, uşaqlar atasız qalmasınlar, atalar şəhid olmasınlar. Sülh istəyirik.

Biz çoxlu şeirlər bilirik. Himnimizi bağçaya gedəndə öyrənmişik. Dərslərimizi sevə-sevə oxuyacağıq.







**Vüqar İsmayılzadə:**
- Mən şəhid Vaqif İsmayılovun oğluyam. Vətən müharibəsində atam igidliklər göstərib. Döyüşçü yoldaşları deyirlər ki, atam da mərd döyüşçü olub. Əsl mərdlik düşməni məğlub edənlərin sırasında olmaqdır. Atamla qürur duyuram. Fəxr edirəm ki, atam qəhrəmandır. Mən igid, qəhrəman oğluyam. Atamın qəhrəman adını mən də uca tutacam. Onun adına layiq oğul olacam. O, Vətənimizi, xalqımızı çox sevirdi. Onun dedikləri yadımızdadı: Vətəni sevin. Qardaşım da, mən də onun kimi Vətənimizi, xalqımızı çox sevirik. Anam deyir ki, siz Vətənə əsl oğul olmalısınız. Gələcəkdə əsgər gedib, Vətəni qorumalısınız. Bu sizin övladlıq borcunuzdur. Mən və qardaşım əsgər olacağıq. Söz verirəm ki, həmişə dərslərimdən əla qiymətlər alacam".

**Ramal Quluzadə:**
- Şəhid Şəhriyar Quliyevin oğluyam. Mən də atamla fəxr edirəm. O, Azərbaycan bayrağını çox sevib. Mən də atam kimi bayrağımızı çox sevirəm. Atamı xatırlaya bilmirəm, amma yuxularımda o, mənimlə danışır. Deyir ki, dərslərini yaxşı oxu. Mənim atam ölməyib, o, yaşayır, şəhidlər ölmür. Evimizdə atamın çoxlu əşyası



var. Kitabları, geyimləri, şəkilləri, bir də bayrağımız. Anam deyir ki, biz o bayrağı həmişə qorumalıyıq. Şəhidlər bayrağımızı ucaltmaq üçün canlarından keçiblər.

*Vətənimizi, torpaqlarımızı azad edərkən şəhid olan igid oğullarımızın övladlarını öz balalarımız kimi bağrına basmaq, onların qayğısına qalmaq hər bir azərbaycanlının mənəvi borcudur. Əziz şəhid övladları, bütün Azərbaycan xalqı kimi, siz də atalarınızla fəxr edə bilərsiniz. Onların əziz xatirəsi bizim qəlbimizdə yaşayır və əbədi yaşayacaqdır.*

*Birinci sinfə gedən şəhid balalarının düşüncələrində Vətən var, qəhrəmanlar var, qəhrəmanlıqlar var, onların qazandığı tarixi Zəfər var. Balacalar gələcəkdə deyəcəklər ki, biz birinci sinfə bu Zəfərin işığında getmişik. Şəhid ataların ruhunun xeyir-duası ilə...*

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



## Bosniya və Herseqovina Türkiyədən 6 ədəd "Bayraktar" PUA-sı alır

Bosniya və Herseqovina Türkiyədən 6 ədəd "Bayraktar TB2" pilotsuz uçuş aparatı (PUA) alacaq.

Bunu Bosniya və Herseqovinanın müdafiə naziri Zukan Helez deyib.

Nazir bildirib ki, Bosniya və Herseqovinanın Müdafiə Nazirliyi Türkiyənin "Baykar" şirkətindən 6 ədəd "Bayraktar TB2" pilotsuz uçuş aparatının alınması ilə bağlı razılaşmanı təsdiqləyib.

"Müqavilə üç idarəetmə sisteminin alınmasını da əhatə edir. Hazırda Bosniya və Herseqovina ordusunun iki bölməsi PUA-ların istismarı üçün Türkiyədə təlim keçir", - deyə Zukan Helez ələvə edib.

PUA-ların ilk partiyasının gələn ilin yanvar ayında Bosniya və Herseqovinaya çatdırılması gözlənilir.

## Serbiyada məcburi hərbi xidmət 75 gün olacaq



Serbiya Prezidenti Aleksandar Vuçiç ölkədə məcburi hərbi xidmətin 75 gün olacağını bildirib.

Aleksandar Vuçiç Serbiyada məcburi hərbi xidmətin 75 gün olması ilə bağlı Müdafiə Nazirliyi tərəfindən ona göndərilən təklifi qəbul etdiyini deyib.

Serbiya Prezidenti ölkəsinin güclü orduya ehtiyac duyduğunu bildirib, hökumətin də bu təklifi qəbul edəcəyinə ümidvar olduğunu vurğulayıb. Aleksandar Vuçiç bu addımın hər hansı bir ölkəyə hücum etmək məqsədi daşımadığını qeyd edib.

Serbiya parlamenti 2010-cu ildə məcburi hərbi xidməti ləğv edib.

## Çin yeni nəsil aviasiya qırıcının sınaqlarına başlayıb



Çin Ordusu yeni nəsil aviasiya qırıcının sınaqlarına başlayıb, lakin təyyarənin əks olunduğu kadrlar göstərilməyib.

Bu barədə "South China Morning Post" qəzeti məlumat yayıb.

Çin J-31 və ya J-35 adlanacaq aviasiya qırıcısı üzərində işləyir. Onun 2012-ci ildə ilk uçuşunu həyata keçirən iki mühərrikli beşinci nəsil ağır FC-35 qırıcısının modifikasiyasından biri olduğu güman edilir.

Aprel ayında ÇXR Müdafiə Nazirliyi sosial şəbəkələrdə "Lyaonin" təyyarədaşıyan gəmisinin göyərtəsində ən yeni qırıcı təyyarəni əks etdirən fotoşəkillər paylaşıb. Çin ordusunun əsas aviasiya qırıcısı J-15 sayılır ki, o da öz növbəsində Ukraynadan alınan Su-33 təyyarəsinin prototipi əsasında hazırlanıb.

Hazırda ÇXR Hərbi Dəniz Qüvvələrinin iki təyyarədaşıyan gəmisi var. Onlardan biri - "Lyaonin" sovet istehsalı olan "Varyaq" kreyserinin bazasında, digəri - "Şandun" isə "Lyaonin" bazasında layihələndirilib.

Çinin üçüncü təyyarədaşıyan gəmisi - "Futsızyan" 2022-ci ilin iyununda suya buraxılsa da, onun Hərbi Dəniz Qüvvələrinə təhvil veriləcəyi 2025-ci ildə gözlənilir.

"South China Morning Post" qəzetinin məlumatına görə, Çin, eyni zamanda, nüvə enerjisi ilə çalışacaq dördüncü təyyarədaşıyan gəmisini də inşa edir.

## Con Kirbi: ABŞ-ın Ukraynanın uzaqmənzilli raketlərdən istifadəsi ilə bağlı siyasəti dəyişməyib

"ABŞ Rusiyanın NATO-nun Rusiya-Ukrayna müharibəsinə cəlb olunması ilə bağlı açıqlamasını ciddi qəbul edir".

Bu sözləri Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiya üzrə müşaviri Con Kirbi mətbuat konfransında deyib. O bildirib ki, ABŞ bu istiqamətdə fəaliyyətləri davamlı şəkildə izləyir.



C.Kirbi, həmçinin bildirib ki, ABŞ-ın Ukraynanın Rusiyaya qarşı uzaqmənzilli silahlardan istifadə etməsi ilə bağlı siyasətində heç bir dəyişiklik yoxdur.

**AZƏRTAC-ın materialları əsasında**

# Ankarada Qafqaz İslam Ordusu qəhrəmanlarının xatirəsi anılıb





*Ankara Ticarət Palatası Şurasının binasında "Qafqaz İslam Ordusu və Ənvər Paşa" mövzusunda tədbir keçirilib.*

AZƏRTAC xəbər verir ki, tədbirin təşkilatçıları qismində Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu (TADİV), Ankara Ticarət Palatası, Türk Dünyası Parlamentarilər Fondu (TDPV) və Azərbaycanın Türkiyədəki səfirliyi çıxış edib.

Tədbir iştirakçıları Türkiyə və Azərbaycan şəhidlərinin xatirəsinə dualar oxuyub, daha sonra Qafqaz İslam Ordusu haqqında film nümayiş olunub.

Türk Dünyası Parlamentariləri Fondunun rəhbəri Abdulla Çalışkan Bakının bolşevik və daşnaklardan azad edilməsini Osmanlı ordusunun Birinci Dünya müharibəsi dövründə qazandığı üç böyük qələbədən biri adlandırıb. "Qafqaz İslam Ordusunun keçdiyi şərəfli yol haqlı olaraq Çanaqqala və Kut əl-Əmər döyüşləri iştirakçılarının şücaətləri ilə eyni sıradadır", - deyə Abdulla Çalışkan bildirib.

TDPV rəhbəri vurğulayıb ki, türk xalqlarının birliyinin gücü qarşısında heç bir düşmən dura bilməz. "Məhz buna görə də Qafqaz İslam Ordusunun qəhrəmanlarının şücaətini xatırlamaq, yeni nəsilləri vətənpərvərlik və dostluq ruhunda tərbiyə etmək vacibdir", - deyə o vurğulayıb.

Ankara Ticarət Palatasının İdarə Heyətinin rəhbəri Gürsel Baran çıxışında qeyd edib ki, Türkiyə və Azərbaycan xalqlarının ortaq tarixi-mədəni köklər birləşdirir. İki ölkə liderlərinin uğurlu və düşünülmüş siyasəti "Bir millət, iki dövlət" kəlamı nöqteyi-nəzərindən sıx əməkdaşlığın rəhni olub.



Daha sonra çıxış edən TADİV-in rəhbəri Aygün Attar Azərbaycanın köməyinə gələn Ənvər Paşanın komandanlığı altındakı ordunun tarixi rolunu qeyd edib.

O qeyd edib ki, o dövrdə Osmanlı dövlətinin üzləşdiyi çətinliklərə və problemlərə baxmayaraq, qətiyyət nümayiş etdirilib və qardaş Azərbaycan xalqına kömək etmək üçün ordunun formalaşmasına qərar verilib.

"106 il bundan əvvəl Bakını işğaldan azad edən Qafqaz İslam Ordusu əsgərlərinin şücaəti türk və Azərbaycan xalqlarının sarsılmaz dostluğu üçün möhkəm bünövrə formalaşdırıb", - deyə Attar bildirib.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım müxtəlif bəhanələrlə Azərbaycanla sülh müqaviləsinin imzalanmasını ləngitməyə çalışan Ermənistanın mövqeyinə diqqət çəkib.

"ATƏT-in Minsk Qrupunun həmsədrləri 30 il ərzində danışıqlar prosesini irəli apara və Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıra bilmədilər. Nəticədə Azərbaycan öz gücü sayəsində tarixi ədaləti bərpa etdi", - deyən Ayrım ATƏT-in Minsk Qrupunun ləğv edilməsinə çağırış edib.

Türkiyəli deputat Prezident İlham Əliyevin qonşu dövlətlərə qarşı ərazi iddiaları ilə bağlı sənədə istinadın yer aldığı Ermənistan Konstitusiyasının dəyişdirilməsinin zəruriliyi ilə bağlı bəyanatının əsaslı olduğunu qeyd edib.

Tədbir çərçivəsində 1918-ci ildə Azərbaycanda baş verən hadisələrə həsr olunmuş sərgi təşkil olunub.

# İdman

## Formula 1 Azərbaycan Qran-Prisinin qalibləri mükafatlandırılıblar



Formula 1 Azərbaycan Qran-Prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq Böyük Britaniya və Avstraliyanın Dövlət himnləri səsləndirilib.

Mükafatları Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem və "Qatar Airways"in Afrika üzrə vitse-prezidenti Hendrik Du Preez təqdim ediblər.

Qeyd edək ki, "McLaren" komandasının avstraliyalı pilotu Oskar Piastri Formula 1 üzrə Azərbaycan Qran-Prisinin qalibi olub. Şarl Lekler ("Ferrari") ikinci, Corc Rassell ("Mercedes") üçüncü olub.

Azərbaycan 2016-cı ildən dünyanın ən nüfuzlu avtoidman yarışına ev sahibliyi edir. Ölkəmizdə təşkil olunan ilk Formula 1 yarışı Avropa Qran-Prisi adlandırılıb. Yalnız 2020-ci ildə Azərbaycan Qran-Prisi koronavirus pandemiyası səbəbindən keçirilməyib.

## Azərbaycan taekvondoçuları Latviyada keçirilən turnirdə 13 medal qazanıblar



Azərbaycanın gənc taekvondoçuları Latviyada keçirilən G-1 kateqoriyalı Riqa açıq birinciliyində 13 medal qazanıblar.

Yığmanın heyətində bütün rəqiblərinə qalib gələn İlyas Hətəmli (48 kq), Məhəmməd Həsənli (51 kq), Fuad Məhərrəmli (55 kq) və Elcan Əliyev (78 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yalnız finalda məğlub olan Nərgiz Kazımova (63 kq) və Yunis Hüseynov (68 kq) ikinci yeri tutublar.

Digər taekvondoçulardan Nilufər Borci (49 kq), Sehri Cəlalova (55 kq), Fatimə Həsənova (59 kq), Harun Salmanzadə (51 kq), Ziya Həsənli (59 kq), Hüseyn Xudiyev (73 kq) və Allahverdi Məmmədov (+78 kq) isə bürünc mükafata layiq görülüblər.

**AZƏRTAC-ın materialları əsasında**

Gzir Aslanov Röyal Ağakişi oğluna verilmiş SQ № 0028838 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Hüseynov Orxan Arif oğluna verilmiş MV № 101910 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 549
Nüsxə 4633